# QARABAĞ ASLANI ƏLİ

***Şəhid əsgər Əli Vaqif oğlu İsmayılovun əziz xatirəsinə həsr edilmişdir.***
***(21 mart 2001-ci il Goranboy rayonunun Qaradağlı kəndi - 25 mart 2021-ci il Bakı şəhəri)***

Şəhid Əli Vaqif oğlu İsmayılov 21 mart 2001-ci ildə Goranboy rayonunun Qaradağlı kəndində anadan olmuşdur. Əlinin atası Vaqif müəllim 1-ci Qarabağ müharibəsində düşmənə qarşı döyüşmüş, böyük şücaətlər göstərmiş, dö- yüşlər zamanı yaralanaraq qazi olmuşdur. Əli 2007-ci ildə Goranboy rayon Mübariz Səfərov adına Qaradağlı kənd tam orta məktəbinin 1-ci sinfinə qədəm qoymuşdur. O, ailədə 2 bacının yeganə qardaşı olsa da özünü başqalarından yuxarı tutmamış, ərköyün kimi aparmamış, kiçik yaşlarından bir igid kimi böyümüş, həmişə ailəsinə bacardığı və əlindən gələn qədər kömək etmişdir. Əli elə uşaqlıq vaxtlarından ailəcanlı, istiqanlı və səmimi olmuş, asudə vaxtlarında atasının qəhrəmanlıq dastanını fəxrlə, Azərbaycanın qanlı keçmişini kədərlə dinləmişdir. Atası müharibədə necə iştirak etdiyindən danışmaqdan, Əli isə onu şirinşirin dinləməkdən yorulmazdı. Uşaq vaxtlarından Vətənin amalı, qayəsi onun qəlbinə, beyninə yeridilmiş,orada özünə məskən salaraq aşılanmışdı. Buna görə də, o, bir az böyüdükdən sonra Qarabağın azad olunmasını gözləməkdə atasına şərik olmuş, ona bu yolda yol-daşlıq etmişdi.

2018-ci ildə orta məktəbi bitirən Əli Bakı Biznes və Kooperasiya Kollecinin Gömrük işi fakültəsinə qəbul olunmuşdur. 2019-cu ilin aprel ayında kollecdə təhsilini yarımçıq qoyaraq həqiqi hərbi xidmətə yollanmışdır. Atası təhsilini sona qədər davam etdirib sonra hərbi xidmətə getməsini ona nə qədər desə də Əli öz fikrindən dönməmiş, birmənalı olaraq kişilik məktəbini başa vurub sonra təhsilini davam etdirəcəyini demişdir. Atası onu əsgərliyə, hərbi xidmətə yola salan zaman Əli atasına yarı zarafat, bəlkə də, arzu kimi deyib ki: "Ata, Sizin yarım qalan müqəddəs işinizi, yəni torpaqlarımızın işğaldan azad edilməsi məsələsini inşəAllah biz tamamlayacağıq." Çox dəqiqliklə belə qənaətə gəlmək olar ki, o vaxt bu sözlər Əlinin dilindən zarafatyana deyilməmişdi.Bu sözlər Əlinin qəlbinin daxilindən gəlirdi, bu Əlinin məqsədi, amalı idi.Elə bil Əlinin ürəyinə əvvəlcədən dammışdı ki, müharibə onun xidmət etdiyi dövrə düşəcək.Əli Ağcabədi rayonunun Yuxarı Qiyaməddinli kəndi ərazisində yerləşən "N" saylı hərbi hissədə, düşmənlə təmas xəttində Artilleriya divizionunda baş tuşlayıcı kimi xidmətə başladı. Əli və onun kimi bir çox vətən övladlarının arzusu çin oldu, 2020-ci ilin sentyabr ayının 27-də torpaqlarımızın erməni tapdağından azad edilməsi üçün Vətən müharibəsi başlayanda elə bil Əliyə bütün dünyanı hədiyyə etmişdilər. O, toya-bayrama gedən kimi sevinirdi. Fikirləşirdi ki, torpaqları azad etdikdən sonra qalib əsgər kimi evə dönüb bu şad xəbəri atasına çatdırmaqla onun 30 il əvvəldən yaralanmış və hələ də qaysaqlamamış yarasına məlhəm sürtəcək. O, bu arzularını həyata keçirmək üçün müharibədə ölümün gözünə dik və məğrur baxaraq döyüşlərə başlayır. Ağdam və Xocavənd uğrunda gedən döyüşlərdə bir çox qəhrəmanlıqlar göstərməklə döyüş yoldaşlarını heyrətləndirməyi bacarır. Komandirləri Əlinin döyüşlərdə göstərdiyi igidlik, cəsurluq və qəhrəmanlıqlarından indi də ağız dolusu danışırlar. Deyirlər ki, bir gün Ağdam-Xocavənd döyüşləri zamanı düşmən silah-sursat anbarına yanan mərmi atır. Əli tez yanğına müdaxilə etmək üçün ora qaçır. Komandiri ona bu işin təhlükəli olmasından danışıb "gizlən" əmri versə də, Əli qorxmazlığını və Vətən uğrunda hər an gözünü qırpmadan canını fəda edə biləcəyini düşmənə göstərmək və divizionu xilas etmək üçün əlinə bel-kürək alıb torpağı qazır və torpağı alovun üzərinə tökərək söndürməyi bacarır. O, Vətən müharibəsində döyüş yoldaşları, sonradan özü kimi şəhadətə qovuşanlar – Ceyhun Möhübbət oğlu Hüseynov, Azər Dilafət oğlu Əliyev, Qubad İslam oğlu Zeynalov, Səhman Qəşəm oğlu Mu- sayev, Elvin Əkbər oğlu Babayev və Cavidan Mirzağa oğlu Ağayevlə birlikdə çiyin-çiyinə düşmənə qarşı mərdliklə mübarizə aparmış, Azərbaycan ordusunun düşmən üzərində qələbə müjdəsini Azərbaycan xalqına, o cümlədən də atasına çatdırmış, həqiqətdə də onun yarasına məlhəm sürtmüşdür. Vətən müharibəsi qələbə ilə başa çatdıqdan sonra da xidmətini davam etdirən Əli 27 fevral 2021-ci ildə Ağdamın Şelli kəndində növbətçi vəzifəsini yerinə yetirərkən hərbi hissədə baş vermiş partlayış zamanı əsgər və döyüş yoldaşı Səhman Musayevlə birlikdə ağır yaralanmış, nəticədə Səhman Musayev şəhid olmuşdur. Ağır vəziyyətdə yaralı olan Əli İsmayılov müalicə olunması üçün helikopterlə Bakı şəhərinə aparılmış, 20 yaşını 21 mart tarixində süni nəfəs aparatında yeni yaşını qarşılayan Əli həkimlərin səyinə baxmayaraq həmin gündən 4 gün sonra – 25 mart 2021-ci ildə qəhrəmancasına Şəhidliyə yüksəlmişdir. Atası və anası Əlinin müharibədən salamat çıxmasına olduqca sevinir, onun hərbi xidməti bitirib gəlməyini səbirsizliklə gözləyir, istəyirdilər ki, toy edib onu evləndirsinlər. Bunun üçün hazırlıq da görmüş, evlərini təmir etdirmişdilər. Lakin, sən saydığını say...Toy üçün təmir olunan o evdə Əlinin yas mərasimini keçirməli oldular...

Vətəni uğrunda aslantək mübarizə aparan və zərrə qədər düşünmədən canın onun yolunda fəda etməyə hazır olan qəhrəman Şəhidimiz Əli İsmayılova Allahdan rəhmət diləyirəm və onun müqəddəs ruhuna həsr etdiyim "Qarabağ aslanı Əli" şeirini böyük qürurla təqdim edirəm.



***QARABAĞ ASLANI ƏLİ***

Evinin tək igididir,
Unudulmaz, əbədidir.
Allahın şah əsəridir,
Qarabağ aslanı Əli.

Qaçqınların haqq səsidir,
Uluların nərəsidir,
Zəfərin nişanəsidir,
Qarabağ aslanı Əli.

Haqqın yolunda mübariz,
Vətən uğrunda fədai.
Odur igid əsgərimiz,
Qarabağ aslanı Əli.

Başımızı uca edən,
Yurdun dərdini dinləyən,
Onun səsinə səs verən,
Qarabağ aslanı Əli.

Həzrət Əlinin adaşı,
Vətənin Zəfər yaddaşı,
Xarıbülbülün sirdaşı,
Qarabağ aslanı Əli.

Atasına layiq oldu,
Gül kimi tez açdı, soldu,
Cavanlığından da doydu,
Qarabağ aslanı Əli.

Cənnət onun dünyasıydı,
Gülüş dolu simasıydı,
Qələbəni çalmasıydı,
Qarabağ aslanı Əli.

Bahar onu bizə verdi,
Bahar onu bizdən etdi,
Cənnətə tez təslim etdi,
Qarabağ aslanı Əli.

O həm qürur, həm acımız,
Mərdimiz, qəhrəmanımız,
Şəhidimiz, baş tacımız,
Qarabağ aslanı Əli.

Mirası idi Zəfəri,
Əmanətiydi Vətəni,
Qoruyacağıq əbədi,
Allahın aslanı Əli,
Qarabağ aslanı Əli.

***15.03.2022***